

Kərim YAYCILI

**AZƏRBAYCAN, AZƏRBAYCAN!**

Nədir əcəb bu səndəki hüsnü-an?
Adın verib könüllərə həyəcan.
Hər anında bağışlanır sənə can,
Azərbaycan, Azərbaycan!

Çiçək desəm – saçlarının telində,
Gül də desəm – dəstə-dəstə əlində.
Şeir desəm – hər dəm şirin dilində,
Nədir əcəb bu səndəki hüsnü-an?
Azərbaycan, Azərbaycan!

Günəş desəm – gözlərində işıq, nur,
Nə ad versəm, hamsı səndə bulunur.
Gözəlliyin yoxdur başqa bir eldə,
Adın öylə bir sehir ki, könüldə,
Hər anışda bağışlanır sənə can,
Azərbaycan, Azərbaycan!